# GÜRCÜSTAN PARLAMENTİNİN 2 APREL 2022-Cİ İL TARİXLİ TƏKRAR SEÇKİLƏRİ

**SƏSVERMƏ SAAT 08.00-DAN 20:00- A KİMİ KEÇƏCƏK**

## Seçicilərin nəzərinə!

**Pandemiya şərtlərində səsvermə prosesi təhlükəsizdir. Səsvermə binasında infeksiyanın yayılmasının bütün prevensiya tədbirləri nəzərə alınıbdır.**



**Markirovkanın yoxlanılması prosedurundan keçin.**

Səsvermə otağına daxil olarkən girişdə yerləşdirilən əlin dezinfeksiyaedici məhlulla əllərinizi təmizləyin.

Axının tənzimlənməsi üzrə komissiya üzvünə şəxsiyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının pasportunu təqdim edin və identifikasiya məqsədi üçün müvəqqəti olaraq maskanı çıxardın.

Səsvermə binasına qəbul edilməyəcəksiniz və səs verməkdə iştirak etmək hüququnuz olmayacaq, əgər:

- Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının pasportunu təqdim etdiyiniz zaman müvəqqəti olaraq maskanı çıxatmasaz
- Markirovka olduğunuz aşkar olsa

Markirovkanın yoxlanılması prosedurundan keçdikdən sonra qeydiyyat masasına yaxınlaşın, qeydiyyatçıya şəxsiyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının pasportunu təqdim edin və müvəqqəti olaraq maskanı çıxardın.

**Markirovkadan keçin.**

Səs verməkdə iştirak etmək hüququnuz olmayacaq, əgər:

- Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının pasportunu təqdim etdiyiniz zaman müvəqqəti olaraq maskanı çıxatmasaz
- Markirovkadan imtina edirsiz





**Seçicilərin siyahısında soyadınızın qarşısında imza atın.**

İmzanız üçün qeydiyyatçının masasında yerləşdirilmiş fərdi istifadə üçün nəzərdə tutulmuş qələmi istifadə edin. Gizli səsvermə kabinəsində seçki bülleteni doldurarkən eyni qələmdən istifadə edin.

Qeydiyyatçı tərəfindən möhürlənmiş və imza ilə təsdiqənmiş seçki bülleteni qəbul edin.

Görmə qabiliyyətindən məhrum olan seçicilər müstəqil olaraq seçki bülletenini doldurmaq üçün qeydiyyatçıdan xüsusi çərçivə-forması ala bilərlər.

Zəif görmə qabiliyyətli seçici müstəqil olaraq seçki bülletenini doldurmaq üçün qeydiyyatçıdan böyüdücü linza ala bilər.

Kar seçici MSK -nın vebsəhifəsində qeydiyyatdan keçdikdən sonra səsvermə proseduru haqqında məlumat əldə etmək üçün jest dili bilən operatorunun xidmətlərindən istifadə edə bilərlər.

**Gizli səsvermə kabinəsində seçki bülleteni sizin üçün istənilən bir seçki subiyektinin sıra nömrəsini seçin**

Əgər seçki bülleteni müstəqil surətdə doldura bilmirsinizsə, səsvermə kabinəsinə kömək üçün seçki komissiya üzvündən,namizəddən, seçki subyektinin nümayəndəsindən, pressa və kütləvi informasiya vasitəsinin nümayəndələri və müşahidəçilərdən başqa hər hansı bir şəxsi dəvət etmə hüququnuz var.

Əgər seçki bülleteni korlandısa, seçki komissiya sədrinə müraciət edin, korlanmışı verin və yeni seçki bülleteni istəyin.

Səsvermə kabinəsindən çıxdıqdan sonra, xüsusi zərfi götürün və qatlanmış seçki bülleteni ona yerləşdirin.

Xüsusi zərfi seçki qutusuna atın.

Səsvermə prosesində istifadə olunmuş fərdi istifadə üçün nəzərdə tutulmuş qələmi xüsusi konteynerə atın.

**Səsvermədə iştirak etdikdən sonra, seçki məntəqəsini tərk edin.**

Səsvermə binasını tərk edərkən çıxışda təmin olunmuş əlin dezinfeksiyaedici məhlulundan istifadə edin.



ცესკო საქართველოს საარჩევნო ადმინისტრაცია

საარჩევნო სისტემების განვითარების, რეფორმებისა და სწავლების ცენტრი

USAID FROM THE AMERICAN PEOPLE

IFES International Foundation for Electoral Systems